**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№324/1** **26 noyabr 2020-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının**
**2021-ci il üzrə iş planı barədə**

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununa, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməyə və “Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasına (2012-2020-ci illər)” uyğun olaraq hazırlanmış Auditorlar Palatasının 2021-ci il üzrə iş planının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə iş planı təsdiq edilsin (əlavə olunur).
2. Məsul icraçılara tapşırılsın ki, təsdiq edilmiş iş planında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.
3. Auditorlar Palatasının Şurası yanında Komitələrin rəhbərlərinə tövsiyə edilsin ki, komitələrin əsasnamələrinə uyğun olaraq Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə iş planında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsində yaxından iştirak etsinlər.
4. Auditorlar Palatası sədrinin müşavirinə (F.Qarayev), Maliyyə təminatı və xarici əlaqələr idarəsinə (V.Rəhimov, F.Kamalova) tapşırılsın ki, növbəti ilin I rübü ərzində Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə iş planının ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.
5. Bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə iş planının mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**